United Nations
Climate Change

COP29
Baku
Azerbaijan

# Media Akkreditasiyası

## Tez-tez verilən suallar



BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (UNFCCC) Katibliyinin Kommunikasiyalar və Qarşılıqlı əlaqələr şöbəsi akkreditasiya üçün müraciət edən şəxslərin peşəkar jurnalist olduqlarından və rəsmi və etibarlı media təşkilatlarını (BMT-nin Baş Assambleyası tərəfindən tanınan ölkələrdən birində media təşkilatı kimi rəsmi qeydiyyatdan keçmiş) təmsil etdiklərindən əmin olmalıdır.

UNFCCC katibliyi BMT Nizamnaməsinin prinsiplərinə zidd fəaliyyət göstərən, verilmiş imtiyazlardan sui-istifadə edən, akkreditasiyanı təyinatına uyğun şəkildə istifadə etməyən və ya Təşkilatın prinsiplərinə cavab verməyən media nümayəndələrinin akkreditasiyasını ləğv etmək və ya geri almaq hüququna malikdir.

**UNFCCC tədbirlərində iştirak etmək istəyən mətbuat nümayəndələrinin akkreditasiyası barədə haradan məlumat əldə edə bilərəm?**
UNFCCC-nin mətbuat və media nümayəndələrinin akkreditasiyası üçün nəzərdə tutulmuş internet səhifəsinə daxil olmağınız xahiş olunur.
UNFCCC Katibliyi media nümayəndələrinin akkreditasiyasını Birləşmiş Millətlər Təşkilatının müvafiq meyarlarına uyğun olaraq həyata keçirir (bu meyarlar ingilis, ərəb, çin, fransız, rus və ispan dillərində mövcuddur), lakin UNFCCC tədbirləri üçün akkreditasiya qərarları yalnız UNFCCC tərəfindən qəbul olunur.

**UNFCCC tədbirlərinə akkreditasiya almaq üçün nə etməliyəm?**
Bunun üçün Onlayn Qeydiyyat Sistemi vasitəsilə müraciət etməyiniz tələb olunur.

**Media nümayəndələrinin Onlayn Qeydiyyat Sistemi nədir?**
Onlayn Qeydiyyat Sistemi şəxsi hesab yaratmağa, əsas məlumatları daxil etməyə və tələb olunan sənədləri yükləməyə imkan yaradan onlayn sistemdir. Sistem vasitəsilə müraciətlərin statusunu yoxlamaq və UNFCCC Katibliyi ilə əlaqə saxlamaq mümkündür.

**Akkreditasiya üçün e-poçt ünvanı vasitəsilə müraciət etmək mümkündürmü?**
Onlayn Qeydiyyat Sistemi media nümayəndələrinin qeydiyyatı üçün yeganə rəsmi resursdur. **UNFCCC Katibliyi hər hansı digər qaydada göndərilən müraciətləri qəbul etmir.** Onlayn Qeydiyyat Sistemi vasitəsilə göndərilməyən akkreditasiya materiallarının heç biri nəzərdən keçirilməyəcək.

**Mən bundan əvvəlki UNFCCC tədbirlərini işıqlandırmışam. Akkreditasiya üçün yenidən müraciət etməliyəmmi?**
Bəli. Əvvəlki UNFCCC tədbirlərində mətbuat nümayəndələrinə verilmiş yaxa kartları etibarlı sayılmır. Mətbuat nümayəndələri hər tədbir üçün yenidən akkreditasiyadan keçməlidirlər. Hər dəfə yeni xidməti ezamiyyə məktubu və jurnalist vəsiqəsinin surətini (və ya jurnalist vəsiqəsi əvəzinə digər materialları) təqdim etmək tələb olunacaq.

**Mənim BMT-nin başqa bir konfransından yaxa kartım var. Bu nişan avtomatik olaraq UNFCCC konfransları üçün də keçərlidirmi?**
BMT-nin başqa bir konfransı üçün aldığınız akkreditasiyanız cari müraciətinizin akkreditasiya komandası tərəfindən qiymətləndirilməsinə əlavə kömək edə bilər. Lakin bu, UNFCCC konfransları üçün akkreditasiya alacağınıza zəmanət vermir.

**BMT-nin Nyu-York, Cenevrə, Vyana və ya Nayrobidə yerləşən qərargahlarında akkreditasiyam varsa, nə etməliyəm?**
Zəhmət olmasa, akkreditasiya yaxa kartınızın şəklini sistemə yükləyin. Bu sənəd əsasında məsələni aidiyyəti üzrə çalışan həmkarlarımızla dəqiqləşdirdikdən sonra akkreditasiyanızı təsdiq edə bilərik. Lakin hər bir halda xidməti ezamiyyə məktubu tələbi qüvvədə qalır.

**UNFCCC tədbirləri üçün akkreditasiyaya nə zaman müraciət etməliyəm?**
Tədbirin keçiriləcəyi məkandakı yerlərin məhdud sayda olduğunu nəzərə alaraq və gecikmə hallarının qarşısını almaq məqsədilə akkreditasiya üçün mümkün qədər tez müraciət etmək tövsiyə olunur.

**Akkreditasiya üçün müraciətlər ən gec nə zaman qəbul olunur?**
UNFCCC Katibliyi müraciətlərin qəbulu ilə bağlı son tarix haqqında məlumatı rəsmi saytda paylaşacaq. Lakin bir qayda olaraq, mümkün qədər tez müraciət etmək tövsiyə olunur.

**Müraciət etmək üçün gecikmişəm. Hələ də akkreditasiya üçün müraciət edə bilərəmmi?**
UNFCCC Katibliyinin gec təqdim olunmuş müraciətlərə baxmaq imkanları məhduddur. Hər bir gecikmiş müraciətə dair qərar fərdi qaydada veriləcək.

**Konfransda iştirak edəcək media nümayəndələrinin sayı ilə bağlı məhdudiyyət varmı?**
Bəli. Kvota üzrə nəzərdə tutulan iştirakçı sayı təhlükəsizlik məsələləri və digər iştirakçılar, eləcə də yanğından mühafizə və təhlükəsizlik qaydaları nəzərə alınmaqla müəyyən olunur. **Bu kvota BÜTÜN iştirakçılara (Tərəflər, müşahidəçi təşkilatlar, BMT, media nümayəndələri) şamil edilir və məkanların fiziki tutumu ilə bağlı maksimum səviyyəyə çatana qədər qüvvədədir.**

### Kvota üzrə nəzərdə tutulan iştirakçı sayına çatdıqda nə baş verir?

Kvota üzrə nəzərdə tutulan iştirakçı sayına çatdıqda heç bir nümayəndə içəri buraxılmayacaq. Nəzərinizə çatdırırıq ki, tədbirin keçirildiyi məkana daxil olan nümayəndələrin sayını dəqiq hesablamaq üçün yaxa kartı qeydiyyat sistemində kvota əks olunur.

### Media akkreditasiyası kimlər üçün nəzərdə tutulub?

Media akkreditasiyası yalnız rəsmi media qurumunu təmsil edən mətbuat nümayəndələri üçün nəzərdə tutulub. Müraciət edən şəxslər rəsmi media subyektində jurnalistika fəaliyyəti ilə məşğul olan peşəkar mətbuat nümayəndəsi olduqlarını nümayiş etdirməlidirlər. Qeyri-hökumət təşkilatlarının (QHT) informasiya mənbələri və ya təbliğat xarakterli nəşrlərinə media akkreditasiyası verilmir.

### UNFCCC Katibliyinin keçirdiyi tədbirlərə akkreditasiya almaq üçün nə etməliyəm?

Siz akkreditasiyaya yalnız Onlayn Qeydiyyat Sistemi vasitəsilə müraciət etməlisiniz, belə ki, media nümayəndələri üçün qeydiyyatdan keçməyin yeganə rəsmi yolu onlayn akkreditasiyadır. UNFCCC Katibliyi namizədlərin hər hansı başqa mənbə vasitəsilə göndərdikləri akkreditasiya müraciətlərini qəbul etməyəcək. Onlayn sistem vasitəsilə göndərilməyən akkreditasiya materiallarının heç biri nəzərdən keçirilmir.

### Akkreditasiyaya onlayn müraciət etmək üçün hansı məlumatlar təqdim edilməlidir?

Siz prosesi tamamlamaq üçün aşağıda göstərilən məlumatları təqdim etməlisiniz. Bütün məlumatlar iştirakçının qeydiyyat masasına təqdim edəcəyi pasport və ya digər fotoşəkilli rəsmi identifikasiya sənədinə uyğun şəkildə təmin edilməlidir.

- Ad və soyad (pasportda və ya digər fotoşəkilli rəsmi identifikasiya sənədində olduğu kimi) – əgər soyadınız yoxdursa, xananı doldurmaya bilərsiniz; əks halda, soyadınızı müvafiq xanaya daxil edin.
- Doğum tarixi
- Vətəndaşlıq
- Pasport və ya digər fotoşəkilli rəsmi identifikasiya sənədinin nömrəsi (şəxsiyyət vəsiqəsi, sürücülük vəsiqəsi və s.)
- E-poçt ünvanı

Zəhmət olmasa, pasport, şəxsiyyət vəsiqəsi, viza və ya digər şəxsi sənədlərinizin surətini yükləməyin.

### Şəxsi məlumatları necə istifadə ediləcək?

Daxil edilən ad və digər məlumatlar yalnız identifikasiya və verifikasiya məqsədilə tələb olunur və ictimaiyyətə açıqlanmayacaq. Bu məlumatlar müvafiq media qurumu tərəfindən sistemdən silinməsi haqqında yazılı müraciət daxil olana qədər istinad üçün sistemdə saxlanılacaq.

### Şəxsi hesab yaratmaq üçün nə etməliyəm?

Zəhmət olmasa, şəxsi hesab yaratmaq üçün Onlayn Qeydiyyat Sisteminə daxil olun. Hesabınızın yaradılması üçün müraciət etdikdən sonra sizə e-poçt vasitəsilə təsdiq linki göndəriləcək. Həmin linkdən istifadə edərək prosesi tamamlaya bilərsiniz. Bundan sonra sistemə giriş üçün istifadəçi adı (login), şifrə və əlavə təlimatlardan ibarət elektron məktub alacaqsınız. Onlayn Qeydiyyat Sistemi üçün yalnız mövcud və etibarlı e-poçt ünvanı tələb olunur.

### Əlavə tələblər varmı?

Şəxsi hesabınız yaradıldıqdan sonra xidməti ezamiyyə məktubunu və jurnalist vəsiqənizin surətini sistemə yükləməlisiniz. Materiallar qrafik formatda (.pdf, .gif, .jpg, .png) skan edilməli və Onlayn Qeydiyyat Sisteminə yüklənməlidir. Skaneriniz yoxdursa, smartfon və ya rəqəmsal fotokamera ilə vəsiqənin şəklini çəkib şəxsi profilinizə yükləyə bilərsiniz. Katiblik ayrıca olaraq e-poçt, faks və ya adi poçt vasitəsilə göndərilən materialları qəbul etməyəcək.

QEYD: sistemə yüklənən hər bir sənədin ölçüsü 4 meqabaytdan artıq olmamalıdır. Qeyd edilən hədd keçildiyi halda, siz xəta baş verdiyi haqda bildiriş alacaqsınız, Katiblik isə materiallarınızı qəbul edə bilməyəcəkdir.

- Xidməti ezamiyyə məktubu media qurumunun rəsmi blankında yazılmalı və nümayəndənin adı və ezamiyyət müddəti göstərilməklə, rəhbər və ya baş redaktor tərəfindən imzalanmalıdır.
- Jurnalist vəsiqəsi etibarlı olmalıdır (müddəti bitmiş jurnalist vəsiqələri qəbul olunmayacaq). Yalnız rəsmi jurnalist vəsiqələrinin skan edilmiş surətləri qəbul ediləcək. Qeyri-rəsmi jurnalist vəsiqələri qəbul olunmur.

Jurnalist vəsiqəsi olmadıqda, siz BMT-nin meyarlarına uyğun olan əlavə materiallar təqdim edə bilərsiniz. Jurnalist vəsiqəniz yoxdursa, aşağıdakı əlavə məlumatları nəzərdən keçirməyiniz xahiş olunur.

**Xidməti ezamiyyə məktubu kimə ünvanlanmalıdır?**
Xidməti ezamiyyə məktubu UNFCCC-nin Mətbuat Ofisinə ünvanlanmalıdır.

**Xidməti ezamiyyə məktubunda hansı məlumatlar əks olunmalıdır?**
Xidməti ezamiyyə məktubu rəsmi blankda olmalı, UNFCCC Mətbuat Ofisinə ünvanlanmalı və akkreditasiyadan keçmək istəyən media qurumunun səlahiyyətli şəxsi (məs.: rəhbər, məsul redaktor və ya büro rəhbəri) tərəfindən imzalanmalıdır. **İmzasız məktublar və ya elektron poçt vasitəsilə göndərilən məktublar qəbul edilməyəcək.**
Xidməti ezamiyyə məktubunda şəxs(lər)in işıqlandıracağı (işıqlandıracaqları) sahə, ezam olunduğu (olunduqları) tədbir və ya layihənin adı, tələb olunan akkreditasiya müddəti, eləcə də ad və peşəkar vəzifəsi(ləri) əks olunmalıdır.
Akkreditasiya eyni qurumu təmsil edən bir neçə nəfər üçün tələb olunarsa, həmin şəxslərin adları tək bir məktubda qeyd oluna bilər, lakin hər bir müraciətçi məktubun surətini öz şəxsi hesabına yükləməlidir.

**Mənim jurnalist vəsiqəm yoxdur. Akkreditasiyadan keçə bilərəmmi?**
Jurnalist vəsiqəniz yoxdursa, sizdən BMT-nin meyarlarına uyğun olaraq jurnalistika fəaliyyətinizi təsdiq edən əlavə materiallar təqdim etməyiniz tələb oluna bilər.

**“Əlavə materiallar” dedikdə nə nəzərdə tutulur? Nə tələb olunur?**
Sizdən aşağıdakı əlavə məlumatları təqdim etmək tələb oluna bilər. Nəzərə alın ki, təqdim edilən iş nümunələri BMT-nin həyata keçirdiyi fəaliyyətlərin, xüsusən də iqlim dəyişmələri prosesinin işıqlandırılmasında fəal iştirakı əks etdirməlidir. Nümunələr rəsmi media qurumuna aid olan və akkreditasiya üçün müraciət edən şəxsin müəllifliyini təsdiq edən orijinal qəzet/jurnal çıxarışları (heç bir dəyişikliyə məruz qalmamış) və ya media məhsulları olmalıdır.

- Mətbu orqan nümayəndələrindən son bir ay ərzində çap olunmuş iki müəllif məqalə və nəşrin surətini təqdim etmək tələb oluna bilər. Məqalələr skan edilmiş PDF faylları və ya onlara keçid linkləri şəklində təqdim edilə bilər.
- Radio və televiziya nümayəndələrindən son bir ay ərzində yayımlanmış iki reportaj yazısını təqdim etmək tələb oluna bilər.
- Fotoqraflardan öz fotoşəkillərinin çap olunan nüsxəsini və ya nəşriyyat təşkilatına aid fotoşəkillər (müəllif adının müraciətçiyə məxsus olması şərti ilə) təqdim etmək xahiş olunacaq. Akkreditasiya üçün müraciət edən şəxsin müəllifliyi aydın şəkildə göstərildiyi halda, fotoşəkillərə onlayn linklər də təqdim oluna bilər.
- Onlayn media xəbər saytlarını, bloqlar, vloqlar və digər məzmunları əhatə edə bilər.
  - Vebsayt tanınmış media qurumuna məxsus olmalı və dəqiq, doğrulana bilən ünvan və telefon nömrəsinə malik olmalıdır.
  - Müraciət edən media qurumu ən azı 6 ay davamlı fəaliyyət göstərməli və 1 ay ərzində platformalarının minimum 20000 ziyarətçisi olmalıdır.
  - Vebsaytda iqlim dəyişmələri mövzusu da daxil olmaqla, ən azı 60% orijinal xəbər məzmunu və ya şərh, yaxud analitik təhlil olmalıdır. Digər mənbələrdə paylaşılan veb-məzmunu toplayaraq dərc edən və orijinal məzmun əks etdirməyən vebsaytlar akkreditə olunmayacaq.
  - Media nümayəndələri son bir ay ərzində vebsaytda dərc olunmuş iki müəllif məqaləsini təqdim etməlidirlər.
  - Vebsayt həftədə ən azı üç dəfə yenilənməlidir.

Xahiş edirik plagiata qarşı “Sıfır tolerantlıq” siyasətinin mövcud olduğunu nəzərə alasınız. Təqdim olunan plagiat iş nümunələri qəbul edilməyəcək.

**Öz fotoşəklimi göndərməyə ehtiyac varmı?**
Xeyr. Fotoşəkliniz qeydiyyat masasında çəkiləcəyi üçün onu əvvəlcədən sistemə yükləməyə ehtiyac yoxdur.

**Akkreditasiya müraciətimin statusu barədə məlumat mənə nə zaman bildiriləcək?**
Bizə çoxsaylı müraciət daxil olduğuna görə sizin məlumatlarınızı qəbul etdikdən sonra onları nəzərdən keçirməyimiz bir qədər vaxt apara bilər. Lakin akkreditasiyaları mümkün qədər qısa zaman ərzində nəzərdən keçirilməsi üçün çalışacayıq.
Müraciətə baxış zamanı aşağıdakı hallar ləngimələrə səbəb ola bilər:

- Lazımi sənədlər müraciətə əlavə edilməyibsə və ya sənədləşmə qaydasında aparılmayıbsa (məsələn, məktub imzalanmayıbsa, jurnalist vəsiqəsinin etibarlılıq müddəti bitibsə və s.);
- Əgər sənədlər BMT-nin rəsmi dillərindən birində təqdim olunmayıbsa.

Zəhmət olmasa, müraciətinizin statusunu şəxsi hesabınıza daxil olaraq onlayn qaydada yoxlayın. Akkreditasiya statusunuz barədə ən son məlumatları almaq üçün mətbuat ofisinə zəng etməməyiniz xahiş olunur. Zəhmət olmasa, bizimlə onlayn sistem vasitəsilə əlaqə saxlayın. Hər bir müraciət fərdi qaydada nəzərdən keçirilir və verilən qərarlar dəyişmir.

### Akkreditasiya statusumu necə yoxlaya bilərəm?

Şəxsi profil yaratdığınız zaman sizə istifadəçi adı və şifrə göndəriləcək. Siz bu məlumatlar vasitəsilə sistemə daxil olub akkreditasiya statusunuzu yoxlaya bilərsiniz. Sənədləriniz qəbul edildikdən sonra məlumatlarınız yenilənəcək və zərurət yarandıqda, sistem vasitəsilə sizinlə əlaqə saxlanılacaq. Müraciətinizin statusu barədə ən son məlumatı öyrənmək üçün bizə zəng etməməyiniz xahiş olunur. Zəhmət olmasa, akkreditasiyanızın statusu barədə məlumat almaq və UNFCCC Katibliyi ilə əlaqə saxlamaq üçün yalnız Onlayn Qeydiyyat Sistemindən istifadə edin.

### Akkreditasiya hansı məqsədlər üçün istifadə oluna bilər?

Media akkreditasiyası yalnız müəyyən UNFCCC konfranslarını işıqlandırmaq üçün istifadə edilə bilər və hər hansı başqa məqsəd üçün istifadəyə əsas vermir.

### Mən konfransda hansı tarixlərdə iştirak edəcəyimi bildirməliyəmmi, yoxsa akkreditasiya bütün konfrans müddətində etibarlıdır?

Təqdim olunan akkreditasiya konfransın keçiriləcəyi müddət ərzində qüvvədə olacaq.

### Mən həm nümayəndə heyətinin üzvü və ya QHT kimi, həm də mətbuat nümayəndəsi kimi akkreditasiyadan keçmək istərdim. Bu mümkündürmü?

Xeyr. İkili qeydiyyata icazə verilmir (məsələn, həm mətbuat nümayəndəsi, həm də nümayəndə heyətinin üzvü, yaxud həm mətbuat nümayəndəsi, həm də QHT kimi). Əgər siz artıq nümayəndə heyətinin üzvü və ya müşahidəçi təşkilatın nümayəndəsi qismində qeydiyyatdan keçmisinizsə, sizin mətbuat nümayəndəsi kimi akkreditasiyaya müraciətiniz təsdiq olunmayacaq.

### Müstəqil (frilanser) jurnalist kimi akkreditasiyadan keçmək mümkündürmü?

Akkreditasiya tələbləri eynilə müstəqil şəkildə çalışan jurnalistlərə (frilanser) də şamil olunur və onlar da qeydiyyat prosesindən keçməlidirlər. Müstəqil jurnalistlər, o cümlədən fotoqraflar, müəyyən xəbər agentliyi və ya nəşriyyat tərəfindən xidməti ezamiyyətə göndərildiklərini əsaslandıra bilməlidirlər. Bunun üçün həmin xəbər agentliyi və ya nəşriyyat tərəfindən verilmiş etibarlı ezamiyyə məktubu təqdim edilməlidir. Foto-agentliklər onların sifarişçisi olan xəbər agentliyi və ya nəşriyyatın verdiyi sübutları təqdim etməlidir. Akkreditasiya üçün tələb olunan digər sənədlər də təqdim edilməlidir.

### Tələbələr akkreditasiyadan keçə bilərlərmi?

Media akkreditasiyası rəsmi media qurumlarını təmsil edən peşəkar mətbuat nümayəndələri üçün nəzərdə tutulur. Jurnalistika təcrübəsinə malik media mütəxəssislərinə təqdim olunan akkreditasiyanın tələbələrə verilməsi mümkün deyil.

### 18 yaşı tamam olmamış şəxslər akkreditasiyadan keçə bilərlərmi?

Xeyr. Akkreditasiya ilə bağlı müraciət edə bilmək üçün media nümayəndələrinin ən azı 18 yaşı olmalıdır. Bununla yanaşı, onların jurnalistika təcrübəsi də olmalıdır.

### Bloqlar və sosial media platformaları üçün media akkreditasiyası varmı?

Biz son dövrlərdə formalaşan yeni informasiya yayımı və sosial şəbəkə vasitələrinin də iştirakına şərait yaratmağa çalışırıq. UNFCCC Katibliyinin tədbirlərində bloger və/və ya influenserlərin akkreditasiyası fərdi qaydada nəzərdən keçiriləcək və hazırda onlayn media vasitələrinin nümayəndələrinə tətbiq olunan meyarlar onlara da şamil ediləcəkdir.

### Qeyri-kommersiya tipli müstəqil onlayn media qruplarını təmsil edən həvəskar və ya mülki jurnalistlərin akkreditasiyası mümkündürmü?

Mülki jurnalistlərlə işləyən və öz redaksiya heyəti olmayan təşkilatlar akkreditasiyadan keçə bilməz.

### Mən iqlim dəyişmələri ilə bağlı sənədli film istehsal edən müstəqil kino şirkətində işləyirəm. Konfransda iştirak edə bilərəmmi?

Müstəqil film şirkətləri onların istehsal etdiyi işləri yayımlamağı və ya paylamağı öz öhdəsinə götürmüş yayım təşkilatı və ya film distribütoru, yaxud da çəkilişi dəstəkləyən BMT-nin tərəfdaş təşkilatı tərəfindən verilmiş məktubu təqdim etməlidir. Layihə iqlim dəyişikliyi mövzusu ilə əlaqəli olmalıdır. Bu halda, akkreditasiya üçün tələb olunan digər sənədləri də təqdim etməlisiniz.

### Mən səfirlikdə mətbuat katibiyəm. Tədbirdə iştirak etmək üçün akkreditasiyaya müraciət etməliyəmmi?

Xeyr. Siz nümayəndə heyətinin üzvü kimi qeydiyyatdan keçməli, adınız isə rəsmi nümayəndə heyətinin siyahısına daxil edilməlidir. Kommunikasiya və media komandası media ilə əlaqə yaradılmasında məmnuniyyətlə sizə kömək edəcək.

### Dövlət və ya hökumət başçılarını müşayiət edən mətbuat nümayəndələri üçün akkreditasiya proseduru necədir?

Dövlət və ya hökumət başçılarını müşayiət edən bütün jurnalistlər rəsmi nümayəndə heyətinin siyahısına daxil edilməli və nümayəndə heyətinin üzvü kimi qeydiyyatdan keçməlidirlər.

### Təmsil etdiyim təşkilat üçün ümumi akkreditasiya əldə edə bilərəmmi?

Onlayn Qeydiyyat Sisteminin tələblərinə uyğun olaraq, media qurumuna ümumi media akkreditasiyası vermək mümkün deyil. Akkreditasiya yalnız tələb olunan etibarlı sənədləri təqdim etmiş rəsmi media təşkilatlarının nümayəndələrinə verilir.

### Təmsil etdiyim təşkilatda artıq akkreditə olunmuş birini əvəz edə bilərəmmi?

Ezamiyyə təyinatlarında qısa zaman ərzində dəyişikliklər baş verə bilər. Zəhmət olmasa, kadr dəyişiklikləri barədə məlumatı bizə dərhal bildirin. Yeni müraciətçi də eyni qeydiyyat prosesindən keçməlidir. Lakin tələb olunan etibarlı materiallar mövcuddursa, onların nəzərdən keçirilməsinə daha az vaxt sərf olunur.

### Jurnalistlərin konfransda iştirakı UNFCCC tərəfindən maliyyələşdirilirmi?

Təəssüf ki, UNFCCC tərəfindən jurnalistlərin konfransda iştirakı maliyyələşdirilmir.

### Mətbuat nümayəndələri üçün səfər və otel rezervasiyaları edilirmi?

Xeyr. UNFCCC tədbirlərini işıqlandırmaq üçün akkreditə olunmuş media nümayəndələri səfər və qonaqlama ilə bağlı məsələlərin həllinə görə özləri məsuliyyət daşıyırlar.

### Mənim viza almağıma kömək edə bilərsinizmi?

UNFCCC Katibliyinin viza üçün dəvət məktubları vermək səlahiyyəti yoxdur. Viza müraciətinizi hazırlayarkən akkreditasiyanızın təsdiqini və media qurumunun sizə verdiyi xidməti ezamiyyə məktubunu istifadə edə bilərsiniz.

### Akkreditasiyam təsdiqləndikdən sonra nə etməliyəm?

Akkreditasiyanızın təsdiqini aldıqdan sonra sizin konfransda iştirakınız qeydiyyata alınacaq. Sizdən təsdiq sənədini çap etməyiniz və ya telefon/kompüterinizə yükləməyiniz və özünüzlə konfransa gətirməyiniz tələb olunur. Siz yaxa kartınızı konfransın keçirildiyi məkanda yerləşən qeydiyyat masasından əldə edə bilərsiniz. Bir qayda olaraq, qeydiyyat tədbirin başlayacağı tarixdən əvvəlki həftəsonu açılır. Bu zaman profilinizdə istifadə olunan etibarlı fotoşəkilli identifikasiya sənədinin eynisini təqdim etməlisiniz. Təsdiq sənədinizin çap olunmuş surəti qeydiyyat prosesini sürətləndirəcək. Fotoşəkliniz qeydiyyat masasında çəkiləcək və buna görə də, əvvəlcədən fotoşəkil göndərməyə ehtiyac yoxdur.

### Yaxa kartımı əvvəlcədən mənə göndərə bilərsinizmi? Onu başqa bir ünvandan götürə bilərəmmi?

Təhlükəsizlik səbəbi ilə yaxa kartlarını əvvəlcədən göndərmək mümkün deyil. Bir qayda olaraq, qeydiyyat konfrans tarixindən əvvəlki həftəsonu açılır. Yaxa kartları konfransın keçirildiyi məkandakı qeydiyyat masasından şəxsən təhvil alınmalıdır.

### Yaxa kartım itdikdə və ya oğurlandıqda nə etməliyəm?

Yaxa kartınız itərsə və ya oğurlanarsa, bu barədə konfransın keçirildiyi məkanda yerləşən mətbuat nümayəndələrinin qeydiyyat masasına dərhal məlumat VERMƏLİSİNİZ.

### Akkreditasiya hansı məkanlara daxil olmağa icazə verir?

Akkreditə olunmuş bütün mətbuat nümayəndələri media mərkəzinə, mətbuat konfransı zal(lar)ına, sərgi salonlarına, əlavə tədbirlərin və açıq plenar iclasların keçiriləcəyi məkanlara, eləcə də konfransın keçirildiyi məkanda ictimaiyyət üçün açıq olan istənilən sahəyə daxil ola bilərlər.
Konfranslarda media işinin təşkili haqqında xüsusi məlumat Müxbirlər üçün Qeydlər sənədində verilir. Bu qeydlər fərdi tədbirlərdə dərc olunur və konkret məkana və/yaxud şəraitə aid olan təşkilati məsələləri ehtiva edir.
Konfrans məkanlarına daxil olan akkreditə olunmuş bütün mətbuat nümayəndələri (özü ilə avadanlıq gətirənlər də daxil olmaqla) təhlükəsizlik yoxlanışından keçməlidirlər.

### UNFCCC tədbirlərində iştirak edəcək akkreditə olunmuş media nümayəndələrinin siyahısını mənə göndərə bilərsinizmi?

UNFCCC tədbirlərində iştirak edəcək media nümayəndələrinin akkreditasiyası barədə məlumat yalnız daxili istifadə üçün nəzərdə tutulur və məxfidir. UNFCCC Katibliyi media siyahılarını dərc etmir və ya paylaşmır.

### UNFCCC xəbərləri və tədbirləri haqqında məlumatlı olmaq istərdim. Məni öz media e-poçt siyahınıza əlavə edə bilərsinizmi?

Media nümayəndələri e-poçt siyahısına əlavə olunmaq üçün UNFCCC-nin Mətbuat Ofisinə elektron məktub göndərməlidirlər.

### Xəbərdarlıq

UNFCCC nizamnamə prinsiplərini və ya jurnalistlər üçün etik davranış qaydalarını və/yaxud BMT qaydalarını pozan fəaliyyətlərə görə akkreditasiyanı təsdiq etməmək və ya ləğv etmək hüququna malikdir. Akkreditasiya təyinatı üzrə istifadə edilmədikdə, təmin olunmuş imtiyazlardan sui-istifadə edildikdə, yaxud akkreditə olunmuş şəxsin fərdi və ya ictimai davranışı Təşkilatın maraqlarına uyğun olmadıqda, UNFCCC Katibliyi onu istənilən vaxt ləğv edə bilər.
Jurnalist vəsiqəsi başqa bir şəxsə verilməməlidir; əks halda, BMT Təhlükəsizlik Xidməti bu cür vəsiqələri geri qaytarmamaq şərtilə təhvil alacaq.

United Nations
Climate Change

COP29
Baku
Azerbaijan